# NARKOMANİYA – AĞ ÖLÜM

**ARAYIŞ** - Narkotikin təsadüfən və ya qəsdən istifadəsindən sonra ona tələbatdan yaranan aludəçilikdir. Narkotikdən bir neçə dəfə istifadə etməklə insan onun əsirinə çevrilir. Buna bir növ xəstəlik də demək olar ki, hansı ki, müalicəsi olduqca çətinliklə başa gəlir.




## SƏN BUNU BILMƏLİSƏN!

Narkotikdən istifadə insanı həm psixoloji, həm də fiziki cəhətdən asılı hala salır. Balaca dostum bil ki, hətta bircə dəfə narkotikdən istifadə insan sağlamlığına düzəlməyəcək ziyanlar vura bilər.

### YADDA SAXLA!

Statistikaya görə narkotikə dücar olan yeniyetmələrin 14%-i narkotik maddələrdən ilk dozanı qəbul etdikdən sonra ondan asılı vəziyyətə düşən narkomanlara çevrilirlər.

## NARKOTIKDƏN İSTİFADƏNİN NƏTİCƏLƏRİ.

♦ Narkotik ilk növbədə insanın sağlamlığına ziyan vurur. Narkomaniya orqanizmin zəifləməsinə, bədənin arıqlamasına və fiziki gücün zəifləməsinə gətirib çıxarır. Orqanizmin zəhərlənməsi daxili orqanların - qara ciyər və böyrəyin zəhərlənməsinə gətirib çıxarır.

♦ Narkomanlar içərisində ən geniş yayılmış xəstəlik hepatit və QIÇS-dir.

♦ Narkotikdən istifadə edənlərdə baş beynin qabığı 7 dəqiqədən sonra ölməyə başlayır. Əlbətdə bütün qabıq birdən ölmür, bu yavaş gedən prosesdir. Buna görə də bir çox narkoman yaşamaqda qalır. Amma onlar natamam insan olurlar. Elələri olur ki, hərəkət edə bilmirlər, heç bir reaksiya göstərmir, düşünmür. Onların beyni ancaq fizioloji prosesləri idarə edir. Məsələn, onları yedirtdikdə yeyir, əşyalardan istifadə edə bilmir, danışa bilmirlər.

♦ Narkotikin olmaması əsəbləşməyə və hirslənməyə gətirib çıxarır. Böyük narahatçılıq başlayır. Insan artıq bir işlə məşğul ola bilmir.

♦ Narkotikə aludə olan insan hər bir alçalmaya, iyrənc hərəkət eləməyə məcbur olur. Həmin insanın bütün maraqları, ümüdləri və qarşısına qoydugu məqsədləri getdikcə sönür.

♦ Narkotika istifadə edən insanların valideynləri, müəllimləri və yoldaşları ilə münasibətləri pisləşir.




♦ Narkotika istifadəçilərinin dünyaya gələn uşaqları da əqli və ya fiziki cəhətdən qüsurlu doğulur.

♦ Narkomanların ömrü də qısa olur. Onlar təxminən 6-7 il ömür sürürlər.

♦ Cinayət törədən insanların böyük əksəriyyəti də narkotika istifadəçiləri olur.

## UNUTMA SƏNİN ÖZ HÜQUQLARIN VAR!

♦ Heç kim səni istəmədəyin pis vərdişlərə aludə olmağa məcbur edə bilməz.
♦ Hər zaman özün üçün düzgün və ən doğru olan qərarı verməyə çalış.

# NARKOTİK KİMİ PİS VƏRDİŞLƏRƏ YOX DEMƏYİ BACAR!